# GƏLDİK... GÜLƏ-GÜLƏ,

...2018-ci ildə Türkiyənin Kastamonu şəhəri TÜRKSOY tərəfindən Türk Dünyası Mədəniyyət Paytaxtı elan olundu. Açılış mərasiminə biz də – gənc həmkarım Elgün Mənsimov (Kaspi.az) və bəndəniz ("Mədəniyyət.AZ" jurnalı) Türkiyənin Azərbaycandakı səfirliyinin mədəniyyət müşaviri sayın **İrfan Çiftci** bəyin dəvətliləri olduq. Türk qövmü adına Azərbaycan, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qaqauziya, Bosniya və Herseqovina, Kosovo, hətta Rumınıya və Serbiyadan da nüfuzlu bir jurnalist heyəti vardı... Mərasimdə Türkiyənin ən yüksək səviyyədə təmsil olunmuş dövlət nümayəndələri iştirak edirdi.


















...Kastamonu bir tərəfdən Qara dəniz, o biri tərəfdən Kürə və İlqaz dağlarıyla əhatə olunan çox etnoqrafik bir şəhər, həm Türkiyənin istiqlal mücadiləsində özünəməxsus tarixçəsi, qəhrəman insanları, gözəl təbiəti, Ilıca şəlaləsi, Valla, Çatay, Hormo və s. kanyonları, möhtəşəm yaylaları kimi heyrətamiz gözəlliyə malik gəzməli yerləri, mədəniyyət mərkəzləri, müzeyləri, Türkiyə ruhani turizminin mərkəzinə çevriləcək qədər insanların mənəvi dünyasına işıq tutan cameləri, övliya məkanları və, ən əsası isə, ilin bütün fəsillərində yamyaşıl meşələri ilə məşhur milli koloritli bir bölgədir!









## GƏZDİK ...GÜLƏ-GÜLƏ,

















KASTAMONU 2018





















KASTAMONU 2018

# KASTAMONU 2018














KASTAMONU 2018



...Həmkarlarımla bərabər Novruz törənində iştirak edib, sonrakı günlərdə şəhərin meydanlarını, Etnoqrafiya muzeyini, Memar Vədat Mədəniyyət Mərkəzini, Saat qülləsini gəzdikcə, İnebolu evlərinin gözəlliyini Kastamonu qalasından izlədikcə bələdçimiz Mustafa Çakırın dilindən bu bölgənin azadlıq uğrunda apardığı mücadilə hekayələrini dinlədikcə onun Kastamonu sevdasına yoluxur şəhərin həm havasını, həm doğma türk tarixini içimizə çəkirdik... Böyük Mustafa Kamal Atatürkün buralara ayağı dəydiyini, ilk şapka muzeyinin onun adı ilə bağlı olduğunu öyrəndik... Aylar keçib, amma Kastamonu təəssüratları bu dərgi səhifələrinin çərçivələrinə sığmayacaq qədər bol və unudulmazdır... İnternet səhifələri buralar haqqında bilgilərlə zəngin olduğu üçün biz daha çox foto təəssüratlarımızı sizinlə paylaşmaq, oralarda bizə bələdçilik edib əziyyətimizi çəkən dostlarımıza – sayın ***Onur Gözet, Erol Evcin, Mustafa Yalçınkaya, Erhan Demir, Gökşen Gedik, Mustafa Çakır, Osman Nuri Civelek, Dilek Şahin*** – təşəkkür etmək istədik, əziz oxucu! Bu bölgənin məşhur və möhtərəm ruhani zatı və şairi Seyx Şaban-ı Veli həzrətlərinin "Gəlişiniz gülə-gülə, gedişiniz gülə-gülə, hər işiniz gülə-gülə" deyimi kastamonuluların dilinin əzbəridir. Odur ki, biz də gəldik gülə-gülə, gəzdik gülə-gülə, yazdıq sevə-sevə...









## YAZDIQ... SEVƏ-SEVƏ...



Zöhrə Əliyeva,
Azər Əlihüseynov
Bakı - Kastamonu - Bakı

KASTAMONU 2018

# KASTAMONU 2018